# *Prezidentin köməkçisi Hikmət HACIYEV:* "Ermənistanın Azərbaycana qarşı son hücumları onun dövlət səviyyəsində həyata keçirdiyi terror siyasətinin göstəricisidir"

Biz Ermənistanın Azərbaycana qarşı son hücumlarını qəti şəkildə pisləyirik. Bu, Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi terror siyasətinin göstəricisidir. Bu əmrlər bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin tapşırığı ilə həyata keçirilir. Burada da beynəlxalq hüquqa əsasən, Ermənistan siyasi rəhbərliyində və qondarma qurumun rəhbərliyində olan şəxslər məsuliyyət daşıyır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, ermənilər tərəfindən hədəfə alınan yerlər arasında hərbi obyektlər yoxdur. Bu hücumlar məqsədyönlü şəkildə həyata keçirilir, artıq uzaqmənzilli raketlərdən də istifadə edilir. Bu raketlər artıq Xızı şəhərinə qədər gəlib çıxıb. Bu, Ermənistan dövlətinin terrorçu əməllərini göstərir. Ermənistan tərəfi öz uğursuzluqlarını ört-basdır etmək üçün bu cür addımlar atır.

* * *

Xain düşmənimizdə hər hansı etik qayda yoxdur. Ölkəmizə qarşı müharibə siyasəti çox eybəcər şəkildə aparılır. Biz Ermənistanın Azərbaycana qarşı son hərbi təcavüzündə bunun bir daha şahidi olduq. Silahlı Qüvvələrimiz də onların layiqli cavablarını verir və verəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan cəmiyyəti, vətəndaşlarımız ən güclü şəkildə səfərbərdir. Biz işğal altındakı torpaqlarımızın azad olunması istiqamətində fəaliyyətimizi davam etdiririk. Bu gün hər birimiz qürur hissi duyuruq. Ali Baş Komandanın rəhbərliyi ilə hər bir Azərbaycan vətəndaşı tarixi, hüquqi əsaslarla öz torpaqlarının işğaldan azad edilməsini istəyir. Bizim işimiz haqq işidir. Qarabağ bizimdir!

* * *

Ermənistanın uzaqmənzilli raketlərdən istifadə etməsi münaqişənin daha da gərginləşməsinə xidmət edən amillərdəndir.

AZƏRTAC xəbər verir ki, bunu oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Prezidentin köməkçisi qeyd edib ki, bu raketlərin trayektoriyasına baxılmalıdır. Həmin raketlərin məsafəsi və trayektoriyası onların Xızıya qədər gəlib çıxdığını göstərir. Bu, açıq-aşkar Ermənistanın acizliyinin, çarəsizliyinin göstəricisidir. Ermənistan bu kimi təxribatlara öz uğursuzluğunu ört-basdır etmək üçün əl atır.

* * *

Bu gün hamımız səfərbərik. Hamımızın bir amalı var ki, işğal altında olan torpaqlarımız işğaldan azad edilsin.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, bu gün ermənilər döyüş meydanında ümidsiz və çarəsiz vəziyyətdədirlər. Son hadisələri hərbi və siyasi təxribat kimi qiymətləndiririk. Onlar üçüncü tərəfləri münaqişəyə cəlb etməyə çalışırlar. Azərbaycan tərəfi bunu çox gözəl bilir, bununla bağlı beynəlxalq təşkilatlara, ölkələrə də məlumat verib.

* * *

Azərbaycanın mülki əhalisinə qarşı hücumlara görə Ermənistanın siyasi-hərbi rəhbərliyi və qondarma rejimin rəhbərliyi məsuliyyət daşıyır. Bütün bunların törədilməsində məqsəd Azərbaycan xalqını təşvişə salmaqdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, bu, vandalizm aktıdır, barbarlıqdır. Ermənistanın istifadə etdiyi raketlər çox köhnədir və ona görə də hədəfə çata bilmir. Amma bəzi raketlər hədəfə çatır və mülki əhali zərər çəkir. Bu zərbələrin bir çoxu Ermənistan ərazisindən həyata keçirilir. Bu, beynəlxalq hüquqa ziddir və Ermənistan tərəfindən Azərbaycana qarşı növbəti müharibə, təcavüz aktıdır. Bu, Ermənistan rəhbərliyinin sivil qaydalardan nə qədər uzaq olduğunu bir daha göstərir. Onlar riyakarlıq nümayiş etdirərək Azərbaycanda mülki əhalini yenidən hədəfə alırlar.

* * *

Bu gün biz xain, alçaq düşmənlə üz-üzəyik. Lakin hər bir Azərbaycan vətəndaşı möhkəmdir. Ermənistanın məqsədi Qarabağ cəbhəsindəki uğursuzluqlarını kompensasiya etməkdir. Onlar Azərbaycan vətəndaşlarına qorxu aşılamağı qarşılarına məqsəd kimi qoyublar, amma buna heç vaxt nail ola bilməyəcəklər.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycana qarşı 30 ildir elan edilməmiş bu təcavüz siyasəti artıq elan olunmuş şəkildə davam edir. Bu gün hər bir



vətəndaşımız qəhrəmanlıq salnaməsi yazır. Bizim işimiz haqq işidir. Biz beynəlxalq hüququn norma və prinsipləri əsasında bu fəaliyyəti həyata keçiririk.

* * *

Xain düşmənimizdə hər hansı etik qayda yoxdur. Ölkəmizə qarşı müharibə siyasəti çox eybəcər şəkildə aparılır. Biz Ermənistanın Azərbaycana qarşı son hərbi təcavüzündə bunun bir daha şahidi olduq. Silahlı Qüvvələrimiz də onların layiqli cavablarını verir və verəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan cəmiyyəti, vətəndaşlarımız ən güclü şəkildə səfərbərdir. Biz işğal altındakı torpaqlarımızın azad olunması istiqamətində fəaliyyətimizi davam etdiririk. Bu gün hər birimiz qürur hissi duyuruq. Ali Baş Komandanın rəhbərliyi ilə hər bir Azərbaycan vətəndaşı tarixi, hüquqi əsaslarla öz torpaqlarının işğaldan azad edilməsini istəyir. Bizim işimiz haqq işidir. Qarabağ bizimdir!

* * *

Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycana qarşı cinayət törətməkdə davam edir. Bu gün Ermənistan yenə Azərbaycanın mülki obyektlərini ağır artilleriyadan, raketlərdən, o cümlədən "Smerç" raketlərindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, mülki insanlar arasında yaralananlar və həlak olanlar var. Ermənistan tərəfindən mülki əhalinin və obyektlərin hədəfə alınması məqsədyönlü şəkildə həyata keçirilir. Son günlər ərzində Ermənistan tərəfinin bu xain hərəkətləri nəticəsində mülki obyektlərə 10 mindən çox mərmi atılıb.

* * *

Ermənistan terrorçu dövlətdir, faşizm xisləti daşıyır. Azərbaycan Ermənistanın hücumlarının heç birini cavabsız qoymur və bu hücumlar adekvat cavabını alır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, hazırda bu atəşin qondarma "Dağlıq Qarabağ respublikası"nın rəhbəri Araik Arutunyanın əmri ilə işğal olunmuş ərazilərdən endirildiyi ilə bağlı məlumatlar yayılır. "Mən buradan Araik Arutunyana müraciət etmək istəyirəm. Araik Arutunyan, sən bunkerdə gizlənmişdin, Azərbaycan Ordusu səni orada da tapdı. Ordumuzun dəqiq zərbəsi nəticəsində Araik Arutunyan ağır yaralanıb. Digər separatçıları da eyni aqibət gözləyir", - deyə Prezidentin köməkçisi qeyd edib.

* * *

Ermənistan silahlı qüvvələri kasetli bombalardan da istifadə edir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın insanların kütləvi şəkildə yaşadığı ərazilərə qadağan olunmuş bombalar atması bu ölkənin terrorçu dövlət olduğunu göstərir.

* * *

Azərbaycan Silahlı Qüvvələri dəqiq zərbələrlə düşmənin legitim hərbi obyektlərini neytrallaşdırır. Düşmənə adekvat cavabların verilməsi bundan sonra da davam etdiriləcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Prezidentin köməkçisi deyib ki, Vardenisdən və Gorus yaxınlığından Azərbaycana raket zərbələri endirilir. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğu bütün region üçün təhlükədir. Ermənistanın hazırkı rəhbərliyi də region üçün təhlükədir. Gəncə, Tərtər və digər şəhərlərimizin əhalisi qorxmadan bu hücumlara sinə gərirlər.

Hikmət Hacıyev bildirib ki, bütün bunlar sənədləşdiriləcək və aidiyyəti beynəlxalq təşkilatlara təqdim ediləcək. Atılan raketlərin trayektoriyası Azərbaycanın peyk texnologiyası ilə dəqiqləşdiriləcək və beynəlxalq təşkilatlara təqdim olunacaq.

Azərbaycan Prezidentinin köməkçisi onu da qeyd edib ki, düşmənin Xankəndi yaxınlığındakı artilleriya nöqtələri sıradan çıxarılıb. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdən çıxarılmalıdır.

* * *

Azərbaycanın mülki əhalisinin və mülki obyektlərinin Ermənistan tərəfindən atəşə tutulması müharibə cinayətidir. Ermənistan tərəfi, əslində, bununla öz acizliyini və zəifliyini göstərir. Azərbaycan Ordusu qarşısında aciz qalan Ermənistan xaincəsinə mülki əhalini atəşə tutur.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, Ermənistanın məqsədi münaqişənin miqyasını genişləndirmək və digər beynəlxalq təşkilatları da münaqişəyə cəlb etməkdir. Azərbaycan legitim hərbi hədəflərə yönəlməklə ermənilərə adekvat cavab verir və onların hərbi obyektləri ordumuzun dəqiq atəşləri ilə məhv edilir.

Hikmət Hacıyev qeyd edib ki, ermənilər xarici jurnalistləri yığaraq şou düzəldirlər, dünyaya yalan məlumatlar verməyə çalışırlar.

Prezidentin köməkçisi onu da vurğulayıb ki, ermənilər mülki əhalini atəşə tutmaqla heç nəyə nail ola bilməyəcəklər. Azərbaycan xalqının əzmi yüksəkdir və hər kəs Azərbaycanın Ali Baş Komandanı ətrafında sıx birləşib. Azərbaycan torpaqları işğaldan azad edilənə qədər biz mübarizəmizi davam etdirəcəyik.

* * *

Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz rəşadətlərini göstərir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, ordumuz çox ağır relyef şəraitində mövcud olan hərbi istehkamları keçərək Suqovuşan istiqamətində nailiyyətlər əldə edib. Bizim qələbələrimiz bundan da artıq olacaq. Məqsədimiz işğal olunmuş ərazilərimizin işğaldan azad edilməsini təmin etməkdir. Xalqımız əmin olsun ki, Silahlı Qüvvələrimiz Ali Baş Komandanın əmri ilə düşmənin legitim hərbi hədəflərini sıradan çıxararaq onun bütün hərbi resurslarını məhv edir. Həmçinin atəşi həyata keçirən məntəqələr, xüsusən də işğal altındakı ərazilərimizdə yerləşdirilən düşmən məntəqələri sıradan çıxarılır.

* * *

Azərbaycanın döyüş meydanında qazandığı uğurların müqabilində Ermənistan bu cür təxribatlara əl atır. Dünən hər birimiz sevindik. Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz çətin dağlıq şəraitdə keçmiş adı Madagiz, hazırkı adı Suqovuşan olan ərazini azad etdi. Ermənistan qorxaqcasına belə addımlar atır. Ancaq Azərbaycan xalqı əmin olsun ki, düşmənin işğal olunmuş ərazilərdəki legitim hərbi hədəfləri sıradan çıxarılır.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Ermənistan ərazisindən endirilən zərbələrlə bağlı Prezidentin köməkçisi qeyd edib ki, bu, təxribatdır və nə məqsədə xidmət etdiyi bizə məlumdur. Onlar bu gün xarici jurnalistləri toplayaraq guya Xankəndidə yanğınlar olması barədə yalan məlumat verirlər. Xankəndi ətrafında Tərtər şəhərini vurmaq üçün istifadə edilən "Smerç" sistemləri vardı, onlar sıradan çıxarılıb. Qondarma "Dağlıq Qarabağ respublikası"nın rəhbəri Araik Arutunyan barədə erməni xalqına yalan məlumat verilir. O, ön cəbhədə deyil, qaçıb bunkerdə gizlənmişdi, amma yenə də qurtula bilmədi, ağır yaralanıb. Onun kimi hərbi cinayətkarlar, separatçıların da aqibəti eyni olacaq.

* * *

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın hərbi təxribatları ilə əlaqədar "Ukraina-24" telekanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatları və dövlətimizin özünün suveren ərazisini müdafiə etməsi, mülki insanlarımızın, obyektlərimizin atəşə məruz qalması barədə danışıb.

Hikmət Hacıyev bildirib ki, Azərbaycan 30 ilə yaxındır münaqişənin dinc yolla həllinə çalışıb. Azərbaycan ATƏT-in Minsk qrupu formatında münaqişənin həllində maraqlı olub, lakin Ermənistan həmişə qeyri-konstruktiv mövqe nümayiş etdirib.

"Ermənistanın baş naziri "Qarabağ Ermənistandır və nöqtə" deməklə danışıqlar prosesini pozmaqda maraqlı olduğunu göstərib, qeyri-konstruktivlik nümayiş etdirib. Bundan başqa, Ermənistan ordusu təxribatlar törədərək Azərbaycanın mülki insanlarını qətlə yetirməyə, evləri, mülki obyektləri atəşə tutmağa başlayıb. Azərbaycan Ordusu vətəndaşların təhlükəsizliyini təmin etmək üçün əks-hücuma keçib", - deyə Prezidentin köməkçisi əlavə edib.

Hikmət Hacıyev həmçinin Azərbaycan və Ukraynanın bir-birinin ərazi bütövlüyünü dəstəklədiklərini xatırladıb, bunun beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olduğunu söyləyib.

Azərbaycan.-2020.- 6 oktyabr.-S.5.